# Dəyərlərin öyrədilməsi tarixi

**Səbinə Aslanova**
*Xəzər Universiteti*
**E-mail:** sabinarma@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** dəyərlər, əxlaq, tərbiyəsi, insan, kommunist, xalq, ədəbiyyat, ənənə, mənəviyyat

**Ключевые слова:** ценности, нравственность, воспитание, человек, коммунист, народ, литература, традиция, духовность

**Key words:** values, morals, upbringing, human, communist, folk, literature, tradition, spirituality

Tərbiyənin bir proses kimi meydana gəlməsi 35-40 min il bundan əvvələ təsadüf edir. Tərbiyənin ən bəsit şəkildə özünü göstərdiyi ibtidai icma dövründə uşağın tərbiyəsi, onun ilk növbədə bəslənməsi və böyüdülməsindən və ən əsası yaşlı nəslin qazandığı bütün təcrübəni yeni nəslə ötürülməsindən ibarət idi. Tərbiyənin ən bəsit hesab olunan məqsədi ən sadə şəkildə yaşamağa və dünyanı lazımi şəkildə dərk etməyə hazırlıqdan ibarət idi.

K.D.Uşinskiyə görə, tərbiyənin məqsədi, həm əxlaqi, həm fiziki, həm də zehni tərəfdən inkişaf etmiş və yaşadığı cəmiyyətə fayda verən mükəmməl insan yetişdirməkdən ibarətdir.

Tərbiyənin ən qədim qollarından biri olan əxlaq tərbiyəsinin meydana gəlməsi və təşkil olunması da çox qədim zamanlara dayanır, Əxlaq tərbiyəsinin kökü çox keçmiş zamanlara aid olsa belə, onun bir termin kimi elmə daxil olması 17-ci əsrə təsadüf edir. Belə ki, pedaqogikanın banisi sayılan Yan Amos Komenski (1592-1670) "əxlaq tərbiyəsi" ifadəsini ilk dəfə pedaqogika elmində istifadə etmişdir. Əxlaq tərbiyəsi tərbiyənin tərkib hissələri arasında çox mühüm bir əhəmiyyətə sahibdir. İnsanların ağlının, təfəkkürünün inkişafı ilə bərabər onların əxlaqi keyfiyyətləri, mənəvi aləmi də formalaşdırılmalıdır. Təhsilli, dünyagörüşünə malik gənclər yetişdirərkən eyni zamanda cəmiyyətimiz üçün yararlı, mənəvi cəhətdən kamil olan, əxlaqı zəngin vətəndaşlar yetişdirmək də məktəb və ailənin vəzifələrindən biridir. Müasir dövrümüzdə cəmiyyətin mənəviyyata olan tələbi daha çox artmışdır.

Komenskidən təxminən 400 il əvvəl Nəsirəddin Tusi öz "Əxlaqi Nasiri" əsərində əxlaq tərbiyənin adını vermədən onun sistemini müəyyənləşdirmişdir. Dahi şəxsiyyət əxlaq tərbiyəsindən bəhs edərkən 3 mənbədən istifadə etdiyini bildirmişdir. O, özünün aldığı ailə tərbiyəsindən, xalqın tərbiyə ilə bağlı ənənələrindən və ondan əvvəl yaşamış və müxtəlif millətlərə məxsus dahilərin fikirlərindən istifadə edərək onları əlaqələndirmiş, təhlil etmiş və müəyyən bir nəticəyə gəlmişdir. Nəsrəddin Tusi bu metoddan istifadə edərək həm Azərbaycan xalqını, həm də bütün dünyanı nəzərə alaraq əxlaq tərbiyəsinin böyük bir sistemini yaratmışdır.

Tusi öyrənilənləri həyatda tətbiq etməyi, həmçinin başqalarına öyrətməyi, yəni nəsildən nəslə ötürülmənin doğru olduğunu qarşısına məqsəd qoymuşdur. Onun yazdıqları həm ondan öncəki zaman, həm də ondan sonrakı zaman ilə əlaqəlidir. Bu da Tusinin ardıcıllıq və əlaqəlilik prinsipinə sadiq qaldığına bir nümunədir. Onun fikrincə, əxlaq uşaqlarda sonradan formalaşdırılacaq bir şeydir. Yəni, doğulan bir uşaq heç bir dəyərə, əxlaqi keyfiyyətə sahib

olmadan dünyaya gəlir. Sonradan isə ailəsi, ətraf mühiti, müəllimlərinin köməkliyi ilə yeni dəyərlər aşılanır. Tusi həmçinin öyrədiləcək məlumatların, dəyərlərin bir-biriləri ilə əlaqəsinin olmasının vacib olduğunu bildirir: "Öyrədiləcək hər nə varsa, bir-birinə mütabiq və müvafiq gəlməli, bir-birinin mütəmmamı sayılmalıdır".

Filosof Aristotel özünün "Əxlaq" və "Məqulat" əsərlərində demişdir ki, pis adamlar təlim və tərbiyə əsasında yaxşılaşa bilərlər, lakin bunun qəti və həmişə belə olacağını demək çətindir. Hər halda nəsihət, məsləhət, təlim, tərbiyə ardıcıl olsa və ədalətli tənbehlə əlaqələndirilsə, nəticəsiz qalmaz. Bəziləri var ki, çox tez tərbiyələnirlər və fəzilətin təsiri dərhal, vaxt gözləmədən özünü göstərir. Elələri də var ki, onların fəzilə doğru hərəkətləri, tərbiyəyə doğru sürətləri yavaş və ləng olur. (N.Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989, s. 83-84)

Uşaqların bəziləri tərbiyə prosesi zamanı aşılanması nəzərdə tutulan dəyərlərə daha tez, bəziləri daha gec, bəziləri isə çox çətinliklə yiyələnirlər. Məhz bunu əsas götürən Tusi, müəllimlərin üzərinə düşən vəzifənin ən başlıcasının şagirdlərə fərdi yanaşmanın olduğunu bildirmişdir. Hər bir insanın xarici görünüşlərinin müxtəlif olduğu kimi xarakterlərin də müxtəlif olduğunu bildirən Tusi, tərbiyə prosesi zamanı çox diqqətli, ədalətli və təmkinli olmanın vacibliyindən danışmışdır. Tusi əxlaq tərbiyəsinin tərkib hissələrində bəhs edərkən, alicənablıq, mətanətlilik, xeyirxahlıq, dostluq, sevgi, mərhəmət, təvazökarlıq, dözümlülük, səmimiyyət, səbr, qənaətçilik, ədalətlilik kimi insani keyfiyyətləri geniş izah ilə vurğulamışdır. Onun fikrincə, əxlaqi tərbiyənin tərkib hissələrinin sayı hədsizdir. Bu qeyd olunanlar isə onların sadəcə bir parçasıdır.

Keçmiş SSRİ zamanında elmi pedaqogikada əxlaq tərbiyəsi artıq yeni bir ad şəklində istifadə olunmağa başlanıldı. Belə ki, "kommunist əxlaqı" adlanan tərbiyənin bu növü V.İ.Leninin kommunist əxlaqi düşüncələrini şərh edərək, kiçik yaşlı uşaqlarda artıq kommunist dəyərlərin formalaşdırılmasında rol oynayır. Kommunist partiyasının kommunist əxlaqının məzmunu kommunizm qurucusunun əxlaq tərbiyəsində ayrı-ayrı prinsiplər kimi qeyd edilmiş ilk və əsas prinsip kimi "kommunizm işinə sədaqət, sosialist vətəninə və sosialist ölkələrə məhəbbət" prinsipi önə çıxarılmışdır.

Verilmiş tələblərə uyğun olaraq prof. M.Ə.Muradxanovun redaktorluğu ilə hazırlanmış "Pedaqogika" adlanan dərslikdə və digər dərs vəsaitlərinin demək olar ki, hamısında "əxlaq" termini "kommunist əxlaqı", "əxlaq tərbiyəsi" isə "kommunist əxlaq tərbiyəsi" kimi göstərilmişdir. Təxminən 70 il müddətində əxlaq tərbiyəsi ilə bağlı çap olunmuş bütün dərsliklərdə, konfrans üçün nəzərdə tutulmuş materiallarda, dissertasiyalarda "əxlaq" "kommunist əxlaqı", "əxlaq tərbiyəsi" isə "kommunist əxlaqı tərbiyəsi" kimi qeyd olunmuşdur.

Qeyd olunan dərslikdə yazılır: "Kommunist qurucularının əxlaqı nə qədər yüksək olarsa, kommunizmin maddi texniki bazasının yaradılmasında, kommunist əmək formalarının və insanlar arasındakı kommunist münasibətlərinin inkişafında onların yaradıcı fəallığı bir o qədər dolğun olar və kommunizm cəmiyyəti bir o qədər də sürətlə qurular." (Pedaqogika (M.Muradxanovun redaktəsi ilə). Bakı, Azərtədrisnəşr, 1964, səh. 263)

Leninə görə, kommunist əxlaqının əsas vəzifəsinin gənclərdə əməyə məhəbbət, proletar beynəlmiləlçiliyi, yoldaşlıq və dostluq, ictimai bütün mülkiyyətə kommunist düşüncələrlə yanaşma, ateizm və şüurlu bir intizam tərbiyə etmək olduğudur. Kommunizmin qurulması və möhkəmlənməsi üçün vacib sayılan kommunist əxlaqı heç bir milli və mənəvi keyfiyyətləri özündə göstərmədiyi üçün formal olaraq sadəcə kağız üzərində qaldı. Və buna əsas səbəb kimi, kommunist əxlaqının formalaşdırılmasında milli əxlaqi keyfiyyətlərdən, tarixi və klassik dəyərlərdən lazımi şəkildə istifadə olunmamışdı.

30-cu illərdə isə artıq pedaqogika elminin əsas mövzusu “Stalin ideyası” idi. Həmin illərdə qəbul edilən qərarlar, həmçinin bu illərin represiya dövrü olması birbaşa təlim-tərbiyə prosesinə də təsir etmişdir. Kommunizm ideyaları Stalinin ideyaları ilə yoğrulmuş bir şəkildə aşılanmağa başlanıldı.

50-ci illər SSRİ dövrünün nisbətən mülayimləşmə dövrü olduğu üçün artıq pedaqogika elmində yeniliklər ortaya çıxmışdı. Pedaqogikanın inkişafı ilə artıq şəxsiyyətə olan pərəstiş tənqid olunmağa, mədəni həyatda demokratiyanın yavaş-yavaş bərpa olunmağa başlanılması və yeni tədqiqatların aparılması ilə tərbiyənin təşkil olunması da inkişaf etməyə başlamışdı.

60-70-ci illərdə kiçik yaşlı uşaqların inkişaf, şəxsiyyətin formalaşması prosesi pedaqogika elminin başlıca mövzusu halını almışdı.

80-ci illərdə yaşayış həyatımızla birlikdə bütün sahələrin də siyasiləşməsi ilə tərbiyə məsələlərində yenidən siyasi ideologiyalar baş qaldırdı. Kominist axlaqı tərbiyəsi tərbiyənin ən əsas qolu halına gəldi.

Əxlaq tərbiyəsi tərbiyənin bir alt növü kimi yalnız müstəqillik qazandığımızdan sonra bu şəkildə özünü göstərə bildi. Müstəqillik dövründə yazılmış bütün kitablarda, dərs vəsaitlərində, həmçinin dissertasiyalarda əxlaq tərbiyəsi terminindən geniş bir şəkildə istifadə olunmağa başlanıldı.

**Məqalənin aktuallığı.** Tərbiyə insanın yarandığı ilk dövrdən meydana gəlmiş böyük bir məfhumdur. Qədim yazıları tədqiq etdiyimiz zaman tərbiyə sisteminin qədim şəkli ortaya çıxmışdır. Hər bir xalqın özünə məxsus mənəvi abidələrinin, şifahi xalq ədəbiyyat nümunələrinin varlığı bizə tərbiyənin qədim zamanlardan meydana çıxdığının sübutudur. Bu baxımdan məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə dəyərlərin tarixi və öyrədilməsi ilə bağlı orta əsr mütəfəkkirləri ilə sovet dövrü alimlərinin fikirlərinin müqayisəli təhlili verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən müəllimlər, tələbə və magistrantlar, eləcə də tədqiqatçı alimlər faydalana bilərlər.

## Ədəbiyyat


1. Z. Əliyeva. Pedaqogika. Bakı, 2004.
2. N.Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989.
3. F. İbrahimov, R. Hüseynzadə. Pedaqogika. 2-ci cild. Bakı, 2012.
4. Pedaqogika / M. Muradxanovun redaktəsi ilə. Bakı, Azərtədrisnəşr, 1964.


**С. Асланова**

## История обучении ценностей

## Резюме

В последние годы изменения учебного плана стали более важными в образовании ценности и обучении ценности. В данной статье представлена информация о процессе обучении ценности от истории Азербайджана до наших дней. Таким образом, были изучены взгляды о ценностях выдающегося мыслителя Азербайджана в средние века Н.

Туси, а также понятие «коммунистической морали», использованной во всей литературе СССР.

**S. Aslanova**

## History of teaching values


## Summary

In recent years, within the curriculum modifications, education of values and transmission of values bears more important. In this article, information is given about the process of teaching values from the history of Azerbaijan to the present. Thus, during the Middle Ages, the notions of the famous philosopher of Azerbaijan, N.Tusi's opinions about values, also the concept of "communist morality" used in all literatures in the USSR were examined.


**Redaksiyaya daxil olub:** 03.08.2019